*Dövlət gənclər siyasəti*

# Gənclər Fondu 4 ildə bir çox uğurlara imza atıb

*Son illər müstəqil respublikamızda müşahidə olunan iqtisadi inkişaf bütün sahələrdə çoxsaylı uğurların əldə edilməsinə səbəb olub. Əlbəttə, bu uğurlardan ölkəmizin gənclərinə də pay düşür. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində fəallığı ilə seçilir, iqtisadi, humanitar, sosial tədbirlərin təşkilində, beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Ölkə gənclərinin hərtərəfli inkişafının təmin edilməsi dövlət siyasətinin başlıca məqsədidir. Azərbaycanda gənclər siyasətinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Belə ki, ümummilli liderin 1994-cü il iyulun 26-da imzaladığı fərmana əsasən Gənclər və İdman Nazirliyi yaradılıb, 1996 və 1999-cu illərdə Azərbaycan gənclərinin birinci və ikinci forumları keçirilib, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" qanun qəbul edilib. Ulu öndər tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2005-2009, 2011-2015-ci illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət proqramlarının uğurla icrası, 2007-ci ilin "Gənclər ili" elan edilməsi, nəhayət, ölkə rəhbərinin 19 dekabr 2011-ci il tarixli fərmanı ilə yaradılmış Gənclər Fondu bu dediklərimizin bariz nümunəsidir.*

***Müsahibimiz Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyevdir.***

Müstəqil respublikamızda gənc nəslin mənəvi və fiziki sağlamlığı, vətənpərvərlik ruhunda tərbiyə olunması, gənclərin intellektual inkişafı, cəmiyyətin ictimai həyatında fəal iştirakı, onların asudə vaxtının mənalı təşkili kimi məsələlər daim diqqət mərkəzindədir. Son illər daha çox gəncin təşəbbüslərini, ideyalarını, təkliflərini, istəklərini reallaşdırmaq, həyata keçirmək istiqamətində atılan addımları sürətləndirmək, onlara dəstək olmaq, gənclər üçün elə məhz gənclər tərəfindən irəli sürülən layihələri reallaşdırmaq üçün belə bir Fondun yaradılması zərurəti meydana gəlmişdir. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə 2011-ci il dekabrın 19-da Azərbaycan Gənclər Fondu məhz "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının tərkib hissəsi kimi yaradıldı. İlkin olaraq fonda Prezident tərəfindən 5 milyon manat vəsait ayrıldı. Fond 2012-ci il iyunun 8-də fəaliyyətə başlayıb. Elə həmin tarixdə ilk qrant müsabiqəsi elan edilmişdir. Gənclər Fondu ölkəmizdə ilk dəfə elektron müraciət sistemi yaratmaqla gənclərlə əməkdaşlığı daha asan və maraqlı etmişdir. Belə ki, Fondun saytı 2 dildə— Azərbaycan və ingilis dilllərində verildi, loqosu isə gənclər arasında keçirilən müsabiqə nəticəsində seçildi. Azərbaycan Prezidentinin sərəncamı ilə yaradılan Müşahidə Şurası bu gün də öz fəaliyyətini uğurla davam etdirir.

Qeyd edim ki, Gənclər Fondu gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətlərin stimullaşdırılmasını, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramların qrant şəklində müəyyənləşdirilməsini təmin edən bir qurumdur. İlk dəfə gənclər təşkilatlar vasitəsilə və eləcə də fərdi şəkildə saytımızda, qeydiyyatdan keçərək öz layihələrini təqdim etdilər. Layihələrə qrantların ayrılması 5 kateqoriya üzrə müəyyən edildi. Bu kateqoriyalar A-yerli layihələr, B-beynəlxalq layihələr, C-gənclərin fərdi layihələri, D-beynəlxalq tədbirlərdə iştirak qrantları və E- xarici vətəndaşların tədqiqat layihələri üzrə bölünür. Gənclər Fondu bütün Azərbaycan gəncləri üçün fəaliyyət göstərir. Gəncləri əhatə edəcək və onların inkişafına yönələcək bütün təkliflər bizim marağımızdadır. Gənc alimlərin, ixtiraçıların işinə dəstək göstərilməsi də Gənclər Fondunun fəaliyyət istiqamətlərinə daxildir. Saytımızda yaradıcı gənclər üçün xüsusi kateqoriya mövcuddur. Gənc alimlər və ixtiraçılar bu kateqoriya üzrə müraciət edərək layihələrini təqdim edə bilirlər.

Fondun nəinki paytaxt Bakıda, həmçinin respublikamızın bütün şəhər və rayonlarında regional təqdimatları keçirilir. Region gəncləri bizim fəaliyyətimiz və müraciət qaydaları barədə məlumatlandırırlar. Regional təqdimatlarda işğal altındakı ərazilərdən olan gənclər də fəal iştirak edirlər. Eyni zamanda gənclər təşkilatları və gənclər üçün infoseminarlar keçirilir.

Qeyd edim ki, Gənclər Fondu 4 ildir ki, fəaliyyət göstərir və indiyədək 7 qrant müsabiqəsi həyata keçirib.

Hazırda Azərbaycan əhalisinin 60 faizdən çoxunu 35 yaşadək olan gənclər təşkil edir. Ölkəmizdə 310 gənclər təşkilatı var. 2012-2015- ci illərdə Fond tərəfindən keçirilmiş 7 müsabiqəyə 5080 layihə ilə müraciət olunub. Müsabiqə çərçivəsində gənclər təşkilatlarının və 16-29 yaşlı fiziki şəxslərin 2330 layihəsi dəstəklənib. Onların həyata keçirilməsi üçün 13,5 milyon manatdan çox vəsait ayrılıb. Fond gənclərin fərdi layihələrinə də maliyyə dəstəyi göstərir. Bu müddətdə eyni zamanda 1600-ə yaxın gənc işlə təmin edilib.

Diqqətə çatdırım ki, dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Müşahidə Şurasının 15-ci iclasında 8-ci qrant müsabiqəsi elan edilib. 8-ci qrant müsabiqəsində "A" kateqoriyası (yerli layihələr) üzrə 12, "B" kateqoriyası (beynəlxalq layihələr) üzrə 4, "C" kateqoriyası (fərdi layihələr) üzrə 13 istiqamət təsdiq edilib, layihələrin təqdim olunması üçün 1 ayadək müddət (18 dekabr 2015-ci il-15 yanvar 2016-cı il) müəyyənləşdirilib. Müsabiqənin istiqamətləri sırasına dini radikallıq və ekstremizmə qarşı maarifləndirici tədbirlərin təşkili, internat və uşaq evləri məzunlarının, eləcə də penitensiar müəssisələrdə cəza çəkmədən azad edilmiş yeniyetmə və gənclərin sosial adaptasiyasına yardım, 2017-ci ildə Azərbaycanda



keçiriləcək IV İslam Həmrəyliyi Oyunları ilə bağlı təbliğat kampaniyasına ictimai dəstək və sair yeni mövzular əlavə edilib. Bu qrantların 16-29 yaşlı tədqiqatçılara, ictimai fəal, istedadlı və yaradıcı gənclərə verilməsi nəzərdə tutulub. Əvvəlki illərdə olduğu kimi, yeni elan olunan müsabiqə də, ilk növbədə gənclərin intellektual, fiziki və mənəvi inkişafına, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında onların fəal iştirakının təmin edilməsinə yönəlib.

Xüsusi vurğulamaq lazımdır ki, son 12 il ərzində dövlət gənclər siyasətinə ayrılan diqqət və qayğı, bu istiqamətdə həyata keçirilən uğurlu layihələr onu göstərir ki, Azərbaycanın sosialyönümlü dövlət siyasətində gənclər ən önəmli prioritetlərdən birinə çevrilib. Bu gün müstəqil respublikamızın gənclər siyasəti nəinki bölgədə, hətta bütün dünyada bir nümunə modeli kimi göstərilə bilər. Ölkə rəhbəri cənab İlham Əliyevin rəhbərliyi altında bu sahədə həyata keçirilən tədbirlər Azərbaycanda dövlət gənclər siyasətinin yeni mərhələyə qədəm qoymasının bir sübutudur.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev söhbətinin sonunda artıq bir neçə gündür yeni ofisdə çalışdıqlarını bildirdi. Biz də Fondun kollektivinə yeni ofisdə qarşıdan gələn 2016-cı ildə daha uğurlu, səmərəli fəaliyyət arzuladıq.

**Söhbəti yazdı:**
**Ramiz YUSİFLİ,**
**"Respublika".**